

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 3 (23.890)

*7 yanvar 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin yeni binasında yaradılan şəraitlə tanış olublar.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına əsasən məscid kompleksi üçün müasir konsepsiya hazırlanıb və yeni bina inşa olunub. İndi məsciddə, eyni zamanda 1800 nəfərin ibadət etməsi mümkün olacaq. Yeni məscid kompleksində kişilərin və qadınların ibadəti üçün bütün zəruri şərait yaradılıb. Kompleksin inşası zamanı Abşeron məscidlərinin memarlıq üslubuna uyğun elementlərdən istifadə olunub. Buraya ağac materialından hazırlanmış şəbəkələr də daxildir. Məscid kompleksinin diametri 4 metr və hündürlüyü 42 metr olan iki minarə və hündürlüyü 25 metr olan günbəz bəzəyir. Kompleksə dindarların dəstəmaz alması, dini ayinlərin keçirilməsi üçün xüsusi binalar da daxildir. Məsciddə mərkəzləşdirilmiş havalandırma sistemi yaradılıb, ətraf ərazi yaşıllaşdırılıb.

Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin müasir kompleksinin istifadəyə verilməsi bir daha sübut edir ki, İslam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinin, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ölkəmizdə dövlət siyasətinin vacib tərkib hissələrindəndir.



*Dövlət proqramı icra olunur*

## Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, təhsilə cəlbi istiqamətində mühüm addımlar atılır

*Muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqlara göstərilən qayğı yüksək səviyyədədir. Bu qəbildən olan uşaqların cəmiyyətə inteqrasiyası, məktəbdənkənar təhsil müəssisələrinə cəlbi, təhsil almaları, asudə vaxtlarının səmərəli təşkili istiqamətində mühüm addımlar atılmaqdadır. Bu baxımdan Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin yaradılması xüsusi əhəmiyyət daşıyır.*



2014-cü il oktyabrın 1-də istifadəyə verilən mərkəzdə audio və elektron kitabxanaların fəaliyyət göstərməsi, brayl əlifbası ilə çap edilmiş dərsliklərin, eləcə də digər ədəbiyyat və jurnallar sağlamlıq imkanları məhdud uşaqların hərtərəfli inkişafına şərait yaratmışdır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" da mühüm əhəmiyyət kəsb edən dövlət sənədidir. Çünki proqramın təsdiq edilməsində məqsəd sağlamlıq imkanları məhdud uşaqların təhsil hüquqlarının təmin edilməsi, inklüziv təhsilə keçid imkanlarının artırılmasından ibarətdir. Proqrama uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Rabitə və Yeni Texnologiyalar nazirliklərinin birgə təşkilatçılığı ilə bu qəbildən olan uşaqların təhsilə cəlbi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Belə ki, onların yaşadıqları mənzillərə yüksəksürətli internet xətləri çəkilir, müvafiq texniki avadanlıqlar quraşdırılır. Bu kimi tədbirlərin həyata keçirilməsi isə, hər şeydən əvvəl, sağlamlıq imkanları məhdud uşaqların təhsilə olan maraqlarının artmasına, bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsinə imkan verir. Proqramın icrası nəticəsində ümumtəhsil müəssisələrində fiziki imkanları məhdud uşaqların inklüziv tədrisə cəlbi, məktəb mühitinə uyğunlaşması məqsədilə onların tədrisdə qismən iştirakına da şərait yaradılıb.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, muxtar respublikada hərəkət qabiliyyəti məhdud uşaqlar üçün təşkil olunmuş distant tədris prosesinin gedişi ötən dövr ərzində diqqət mərkəzində saxlanılıb və tədrisə yeni cəlb edilən şagirdlər zəruri təhsil ləvazimatları və texniki avadanlıqlarla təmin olunublar. Belə ki, hərəkət qabiliyyəti məhdud 3 uşaq distant tədrisə cəlb olunub və hazırda Distant Tədris Mərkəzində 15 uşaq,



Görmə qabiliyyəti məhdud uşaqlar üçün xüsusi ibtidai məktəbdə isə 7 uşaq təhsilini davam etdirir. Bununla yanaşı, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində eşitmə və danışma qabiliyyəti məhdud olan 8 uşağa distant dərslər keçilir.

Görülən bu işlərlə yanaşı, sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə aidiyyəti dövlət orqanları ilə birgə məktəbəqədər, məktəb və məktəbdənkənar təhsil müəssisələrində monitorinqlər aparılır, keçirilən tədbirlərdə sağlamlıq imkanları məhdud uşaqların valideynləri, bu kateqoriyadan olan uşaqlara dərsləri tədris edən müəllimlər və məktəb psixoloqlarının iştirakı təmin edilir. Dövlət proqramının icrasına uyğun olaraq müvafiq dövrdə sağlamlıq imkanları məhdud 771 uşağın təhsil aldığı 12 məktəbəqədər müəssisə, 10 məktəbdənkənar müəssisə, 71 ümumtəhsil məktəbi, 2 lisey və 18 musiqi məktəbi olmaqla, ümumilikdə, 113 müəssisədə monitorinqlər təşkil edilib. Təhsilə cəlb olunmuş şagirdlərin maddi təminatının yaxşılaşdırılması məqsədilə sosial qayğıya ehtiyacı olan uşaqlar ötən dövr ərzində qış geyimləri, məktəbli forma və ləvazimatları ilə təmin ediliblər. Bu məqsədlə 2021-ci ilin sentyabr ayında xüsusi qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud 295 uşağın hər birinə məktəbli geyim dəsti və dərs ləvazimatları, noyabrda isə qış geyimləri verilib.

Ötən dövrdə sağlamlıq imkanları məhdud uşaqların bacarıq, imkan və maraqları nəzərə alınmaqla peşə təhsilinə cəlb edilmələri istiqamətində də işlər davam etdirilib. Belə ki, Naxçıvan Regional Peşə Tədris Mərkəzindəki dərzi kursuna müvafiq kateqoriyadan 2 uşaq cəlb olunub, onlar da kursu uğurla başa vuraraq sertifikatlarla təmin ediliblər. Həmçinin ümumtəhsil məktəblərinin yuxarı siniflərində təhsil alan müvafiq kateqoriyadan olan uşaqların peşə seçiminə köməklik məqsədilə ümumtəhsil məktəbində peşəyönümlü məşğələlər də təşkil edilib.

Sağlamlıq imkanları məhdud uşaqların hərtərəfli qayğı ilə əhatə olunmasının davamı kimi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 13 dekabr tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Distant Təhsil Mərkəzinin yaradılması və fəaliyyət Qaydası" təsdiq edilmişdir. Məlumat üçün qeyd edək ki, mərkəzdə tədris sağlamlıq imkanları məhdud uşaqların təhsil alması xüsusi dövlət təhsil standartları və proqramları əsasında həyata keçirilir. Mərkəz Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbin nəzdində fəaliyyət göstərir. Mərkəzin əsas məqsədi sağlamlıq imkanları məhdud uşaqlara zəruri bilik, bacarıq və vərdişlər aşılamaqla onların cəmiyyətə uyğunlaşmasını və təhsil almaq imkanını təmin etməkdən ibarətdir. Sağlamlıq imkanları məhdud uşaqlar mərkəzə xəstəxanaların, poliklinikaların, dispanserlərin təqdim etdiyi sənədlər əsasında rayon, şəhər psixoloji-tibbi pedaqoji komissiyaların qərarı ilə qəbul olunurlar. Mərkəzə 6 yaşı tamam olan, sağlamlıq vəziyyətinə görə ümumtəhsil məktəblərində oxuya bilməyən uşaqlar cəlb edilir. Qanunvericiliklə müəyyən olunmuş qaydada ümumi təhsil pilləsinin ümumi orta və tam orta təhsil səviyyəsini başa vuran məzunlara attestat verilir.

*Bir sözlə, bu gün muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqların təhsil almaları və cəmiyyətin fəal bir üzvünə çevrilmələri üçün görülən işlər hər birimizin gözü qarşısındadır. Atılan bu məqsədyönlü addımlar isə hər birimizi sevindirir, doğma diyarımızın sakini olmaq qürurunu daha da yüksəldir.*

**Nuray ƏSGƏROVA**

*Əlahiddə Ümumqoşun Orduda taktiki-xüsusi təlim keçirilib. Təlimdə təxribata hazırlaşan şərti düşmənin hava hücumundan müdafiə sistemi sıradan çıxarılıb.*

## Taktiki-xüsusi təlim keçirilib



Təlimin ssenarisinə əsasən xüsusi təyinatlı qruplara strateji obyektlərimizi və hava məkanımızı hədəf alan şərti düşmənin hava hücumundan müdafiə sisteminin məhv edilməsi tapşırığı verilib. Tapşırığı almış xüsusi təyinatlı qruplar terrorçuların məskən saldığı yaşayış məntəqəsinə həmlə ediblər.

Terror fəaliyyətlərinin gücləndirilməsi üçün köməyə gələn şərti düşmənin şəxsi heyətlə dolu hərbi texnikaları pusquya salınaraq sıradan çıxarılıb.

Real döyüş şəraitinə maksimum yaxınlaşdırılmış şərtlərlə keçirilən təlimdə yaxın məsafəli döyüş elementləri yerinə yetirilib.

Şərti düşmənin hava hücumundan müdafiə sisteminin idarəetmə məntəqəsini və döyüş heyətlərini zərərsizləşdirən xüsusi təyinatlılarımız terror qruplaşmasının zenit-raket komplekslərini partlayış üsulu ilə məhv ediblər.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayevin və Türkiyə Silahlı Qüvvələri mənsublarının izlədikləri təlimin sonunda şəxsi heyətin terrorla mübarizə vərdişləri yüksək qiymətləndirilib, təlimdə iştirak edən hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edilib.

**Nəriman NƏCƏFOV**

## Meliorasiya və irriqasiya tədbirləri ötən il də uğurla davam etdirilib



Muxtar respublikada yaradılan müasir meliorasiya və irriqasiya sistemləri torpaqların su təminatını yaxşılaşdırır, yeni torpaq sahələri əkin dövriyyəsinə daxil edilir. Naxçıvanda aqrar sahənin inkişafında meliorasiya və su təsərrüfatı sisteminin müasirləşdirilməsi əsas istiqamət kimi götürülür, elmi əsaslara söykənən təhlillər aparılır, mütərəqqi suvarma şəbəkələri və nasos stansiyaları qurularaq istifadəyə verilir. Bu tədbirlər Babək rayonunda da uğurla davam etdirilir. Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsindən aldığımız məlumatda deyilir ki, ötən ilin dekabr ayında 10 min 250 metr arx, 1800 metr kollektor lildən təmizlənib. Hesabat dövrü ərzində 750 hektardan artıq torpaq sahəsinin meliorativ vəziyyəti yaxşılaşdırılıb, 3,5 hektar sahə yeni əkin dövriyyəsinə qatılıb. 2021-ci ilin dekabr ayı ərzində rayon ərazisində 450 metr yeni içməli su, 70 metr kanalizasiya xətti çəkilib, 145 metr içməli su və 39 metr kanalizasiya xətlərində təmir-bərpa işləri aparılıb. Bəhs olunan dövrdə 22 metr suvarma və 140 metr təzyiqli boru xətlərində təmir-bərpa işləri görülüb.

2022-ci ildə də meliorasiya və irriqasiya tədbirlərinin əhatə dairəsi genişləndiriləcəkdir.

**Xəbərlər şöbəsi**



Müasirləşən kəndlərimiz

# İnkişaf və tərəqqinin növbəti ünvanı: VƏLƏVER kəndi

***Muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Ordubad rayonunda da quruculuq, abadlıq işlərinin coğrafiyası genişlənir, əhatəliliyini artırır, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi üçün genişmiqyaslı tədbirlər həyata keçirilir. Diyarımızda bölgələrin inkişafına, abadlaşmasına göstərilən davamlı diqqət və qayğının nəticəsidir ki, bu bölgənin də kəndlərində yaraşıqlı binalar salınıb, məktəblər tikilib, yeni infrastruktur, xidmət sahələri yaradılıb. Rayon mərkəzi öz simasını əsaslı surətdə dəyişib. O da xüsusi vurğulanmalıdır ki, ulu öndərimiz Heydər Əliyevin “Azərbaycanın incisi” adlandırdığı Ordubad qədim yurd yerlərimizdən biridir və bunu sübut edən onlarla tarixi-memarlıq abidələri öz ilkinliyini qoruyub saxlayıb. Kompleks quruculuq işləri həyata keçirilərkən məhz bu amilə ciddi önəm verilir, qədimliklə müasirliyin vəhdəti qorunur. Rayonun kompleks quruculuq hesabına müasirliyə qovuşan yaşayış məntəqələrindən biri də Vələver kəndidir.***

Məlumat üçün qeyd edək ki, 2021-ci il dekabrın 23-də burada tam orta məktəb, kənd və xidmət mərkəzlərinin binaları istifadəyə verilib. Bu binalarda polis sahə, feldşer-mama və baytarlıq məntəqələri, kitabxana, statistika otağı, klub, Yeni Azərbaycan Partiyası Vələver kənd ərazi ilk təşkilatı, arxiv və 38 yerlik zal yerləşir. Açılış günü sakinlərlə görüş zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov onları təbrik edərək demişdir: ***“Bu gün 3 kəndi özündə birləşdirən Vələver kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin ərazisi tamamilə abadlaşdırılıb. Kənd müasir kəndlər sırasına daxil olub. Yollar yenidən qurulub, elektrik, qaz xətləri yenilənib, məktəb tikilib, feldşer-mama məntəqəsi və dövlət orqanları üçün müasir iş şəraiti yaradılıb. Bir sözlə, kəndin bütün ehtiyacları nəzərə alınıb. Ölkəmiz 30 ildir ki, müstəqil dövlətdir. Müstəqilliyimizin ilk illəri, çətin dövrləri idi. Həmin illərdə ölkədə qarışıqlıq, vətəndaş müharibəsi hökm sürür, eyni zamanda torpaqlarımız işğala məruz qalırdı. Lakin ümummilli liderimizin siyasi hakimiyyətə qayıdışından sonra ölkədə sabitlik və inkişafın təməli qoyuldu. Ölkə Prezidentinin bu gün o yolu uğurla davam etdirməsinin nəticəsidir ki, Azərbaycan inkişaf etmiş ölkələr sırasında öz layiqli yerini tutub. Uzun illər işğal altında olan torpaqlarımız azad olunub. Bu gün ölkəmiz quruculuq meydanına çevrilib, işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərinə başlanılıb və insanların yaşayışının yaxşılaşdırılması üçün lazım olan işlər həyata keçirilir. Vələver kəndində görülən işlər də ölkəmizin inkişafının göstəricisidir. Həyata keçirilən tədbirlər insanların rahat yaşayışına, kəndin gələcək inkişafının təmin edilməsinə hesablanıb”.***



Dünən

Biz də kənddə yaradılan şəraitlə və burada məskunlaşmış insanların həyat tərzi, məşğuliyyəti ilə daha yaxından tanış olmaq üçün üz tuturuq qədimliklə müasirliyin vəhdətini özündə yaşadan bu yurd yerinə.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin müavini Röyal Əliyevlə uzaqdan arxitektura üslubu ilə diqqəti cəlb edən kənd mərkəzində görüşürük. Öncə növbəti dövlət qayğısı münasibətilə onu və kənd sakinlərini təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayırıq.



Məktəb

Bu gün

İlk gedəcəyimiz ünvan kənd tam orta məktəbi olur. Müəllim və şagird kollektivinin sevincini hiss etmək çətin deyil. Rayon mərkəzlərində, paytaxt şəhərimizdə tikilmiş tədris ocaqlarından seçilməyən məktəbdə təhsilin yüksək səviyyədə qurulması üçün hərtərəfli şərait yaradılıb. Bunu məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi olan Xəyalə Həsənova da xüsusi vurğulayır. Xəyalə müəllim deyir ki, bu gün Vələver kəndinə baxanda, sanki bir qəsəbə, bir şəhər görürsən. Keçmiş palçıqlı yollar, his basmış siniflər, az qala adamın başına düşən elektrik dirəkləri indi yoxdur. Onların yerində asfalt yol, ən müasir standartlara cavab verən məktəb, bir sözlə, dövlətimizin diqqət və qayğısı ilə abadlaşan Vələver kəndi var.

Ona “Vələver” adının mənşəyi ilə bağlı verdiyimiz suala cavab olaraq bildirir ki, bu söz xalq etimologiyasına əsaslanır. O zamanlar əkinçilər yetişdirdikləri taxılı vələ verirdilər. Buna görə də kənd “Vələver” adlandırılıb. Bu yaşayış məntəqəsi VII, VIII əsrlərdə böyük şəhər olub. Lakin zəlzələ nəticəsində dağılıb. Bu gün isə gördüyünüz kimi Vələver müasir Azərbaycan kəndinin canlı nümunəsidir.

Məktəbin direktoru Səxavət Seyidov söhbətə qoşulur: – İllərdir ki, kəndlərimizin infrastruktur təminatı baxımından şəhər və rayon mərkəzlərindən geridə qalmaması hər bir yaşayış məntəqəsinin inkişafına və insan amilinə dövlətimiz tərəfindən verilən dəyərin ifadəsidir. Vələver məktəbində yaradılan şərait şagirdlərin daha yaxşı təhsil almalarına geniş imkan açmaqla yanaşı, müəllimləri də daha yaxşı işləməyə ruhlandırır. Belə şəraitə görə məktəbin kollektivi adından minnətdarlığımızı bildirir və əmin edirik ki, bundan sonra da bilikli və vətənpərvər gənclərin yetişdirilməsində səylərimizi əsirgəməyəcəyik.



Dünən

Öyrənirik ki, 3 mərtəbədən ibarət olan 198 şagird yerlik məktəbdə 12 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, 2 elektron lövhəli sinif, şahmat sinfi, kompüter, psixoloq və müəllimlər otaqları, hərbi kabinə, STEAM kabinəsi, kitabxana, qarderob və idman zalı müəllim və şagirdlərin ixtiyarına verilib. Məktəbin kitabxana fondunda dərslik və bədii ədəbiyyatlardan ibarət 4557 kitab vardır. Təhsil ocağında internetə çıxışı olan 22 kompüter və 4 elektron lövhə quraşdırılıb. Buradakı müasir laboratoriyalar, fənn kabinələri, elektron lövhəli siniflər dərslərin yüksək səviyyədə tədrisinə imkan yaradıb.



Sonra yolumuzu feldşer-mama məntəqəsinə salırıq. Kənd mərkəzinin binasında yerləşən məntəqədə çalışan Mirvari Rzayeva ilə həmsöhbət oluruq: – 2014-cü ildən səhiyyə sistemindəyəm. Əvvəllər köhnə və 1 otaqdan ibarət olan bir binada fəaliyyət göstərirdik. İndi isə bizə 3 otaqdan ibarət olan və müasir avadanlıqlarla təchiz edilmiş otaqlar verilib. Vələverlilər bu işləri çox yüksək qiymətləndirir və dövlətimizin qayğısını razılıqla qarşılayırlar. Bu gün istifadəyə verilən sosial obyektlər təbiəti gözəl olan kəndimizə ikiqat gözəllik bəxş edir. Biz də yaradılan şəraitdən istifadə edərək kəndin inkişafında fəallıq göstərəcəyik.



Kənd mərkəzi

Bu gün

Kənddə ailə təsərrüfatçıları çoxdur. Onlardan biri olan Amil Babayev uzun illərdir, fərdi qaydada araq hazırlayır. Hər işin özünəməxsus incəliklərinin olduğunu bildirən müsahibim muxtar respublikada son illərdə ən mütərəqqi təsərrüfat forması olan ailə təsərrüfatlarının fəaliyyətinə yaradılan şəraitdən razılıqla danışaraq deyir ki, istehsal etdiyim məhsulları hər il keçirilən “Ailə təsərrüfatı məhsulları” satış yarmarkasına çıxarıram. Göstərilən qayğı nəticəsində ailə təsərrüfatımı xeyli genişləndirə bildim. Biz zəhmət adamlarına göstərilən qayğıya görə dövlətimizə öz minnətdarlığımı bildirirəm.

Vələverdə heyvandarlıq və maldarlığın inkişafına da xüsusi önəm verilir. Kənd sakini Cavid Məmmədov dədə-babadan bu təsərrüfat sahəsi ilə məşğuldur. O deyir ki, dünyanın hər yerində maldarlıq və heyvandarlıq ən yaxşı gəlir gətirən kənd təsərrüfatı sahələrindəndir. Ona görə də son illər muxtar respublikamızda bu sahələrin inkişafına böyük önəm verilir. Kreditlər ayrılır, baytarlıq tədbirləri diqqət mərkəzində saxlanılır. Bu da heyvandarlığa və maldarlığa marağı artırır. Hazırda təsərrüfatımda 111 baş xırdabuynuzlu və 8 baş iribuynuzlu bəsləyirəm. Ümumiyyətlə, insan gördüyü işdən zövq almalıdır. Bəslədiyin heyvanlara aqrotexniki qaydalar əsasında qulluq edərsənsə, yüksək nəticələrə nail olarsan. Müsahibim deyir ki, təsərrüfatını gələcəkdə bir qədər də genişləndirmək fikrindədir.

*Bir sözlə, bu gün Vələver müasirlik donundadır. Vələverlilər bunu görür, yüksək dəyərləndirir, qurulanları, yaradılanları qoruyurlar. Bilirlər ki, kiçik bir yaşayış məntəqəsində həyata keçirilən bu tədbirlər onlara dövlətimizin qayğısı, güclü dövlət və yüksək rifah strategiyasının bəhrəsidir.*

**Aytac CƏFƏRLİ**



## Hər biri 150 tirajla 73 klinik protokol işıq üzü görüb

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsi və Elmi tibbi şurası tərəfindən klinik praktikada istifadə olunmaq üçün hazırlanan, nazirliyin 26 fevral 2021-ci il tarixli kollegiyasında təsdiq edilən 73 klinik protokol hər biri 150 tirajla bu günlərdə “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunub.*

Müxtəlifixtisaslı həkim və baş mütəxəssislərin birgə əməyi ilə hazırlanan protokollar profillər üzrə müvafiq səhiyyə müəssisələrinə paylanılıb, müayinə və müalicə prosesində həmin protokollara istinad olunması barədə baş həkimlərə tapşırıqlar verilib. Muxtar respublikada ən çox rast gələnən xəstəliklərin müayinə və müalicə üsulları, digər məlumatlar protokolların əsas mövzuları sırasındadır.

2021-ci il yanvar ayının 1-dən icbari tibbi sığortanın muxtar respublika ərazisində tətbiq edilməsi, vətəndaşların etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərdən yararlanması, sığortanın xidmətlər zərfinə daxil olan tibbi prosedurlardan yararlanması klinik protokolların zəruriliyini daha da artırıb.

Qeyd edilməlidir ki, müasir dövrdə dünyanın əksər ölkələrinin səhiyyə sisteminin qarşısında duran vəzifə, həyata keçirilən islahat və dəyişikliklərin başlıca məqsədi tibbi yardımın keyfiyyətinin yüksəldilməsidir. Tibb elminin şaxələnməsi, tibbi biliklərin dərinləşməsi, əczaçılıq sənayesinin sürətli inkişafı, yeni müalicə üsullarının və dərman vasitələrinin tətbiqi, ənənəvi müalicə üsulları və istifadədə olan dərman vasitələri haqqında yeni biliklərin meydana çıxması həkimlərin məsuliyyətini artırmaqla yanaşı, həm də onların fəaliyyətində bir sıra çətinliklər yaradır. Keyfiyyətli tibbi yardım bir tərəfdən köhnəlikdən yaxa qurtarmağı, bütün dünyanın artıq çoxdan imtina etdiyi müalicə üsullarından əl çəkərək innovasiyalara yol açmağı, digər tərəfdən isə düşünülmüş addımlar atmağı, tam tədqiq edilməmiş və sübut olunmamış hər hansı yeniliyin tətbiqindən çəkinməyi nəzərdə tutur.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***




2022-ci il “Şuşa ili”dir

# Şuşa sevgisi

## Gözəl Şuşa haqqında ən gözəl kəlmələrdən seçmələr “Şərq qapısı” qəzeti, 1970-1990-cı illər

*Qarabağın baş tacı, şanlı Zəfər yolumuzun qəhrəman qalası Şuşa bu gün öz gözəlliyi və ecazkarlığı ilə bütün dünyanın diqqət mərkəzindədir. Hələ 270 il əvvəl əsası qoyulmuş Şuşa özünün tarixi keçmişi, dünya mədəniyyətinə verdiyi töhfələrlə 100 il əvvəl olduğu kimi, indi də dilimizin əzbəri, ən gözəl nəğmələrimizin nəqəratıdır. Qarabağ torpaqlarında düşmən işğalına son qoyan Müzəffər Azərbaycan Ordusunun Şuşada üçrəngli bayrağımızı ucaltması ilə qazanılan böyük qələbədən sonra xalqımızın ən böyük istəyi indi Şuşanın yenidən dirçəldilməsi, onun bütün gözəlliklərinin insanlığa yenidən qazandırılmasıdır.*

44 günlük şanlı Vətən müharibəsi sonunda ölkə başçımız, qalib sərkərdə cənab İlham Əliyevin ***“Əziz Şuşa, biz qayıtmışıq, biz səni dirçəldəcəyik!”*** müjdəsindən sonra bütün dünya Azərbaycan xalqının Qarabağ, Şuşa sevgisinin bir daha şahidi oldu. Qısa müddətə Şuşa öz doğma anasına, Azərbaycana qovuşdu. Yollar çəkildi, həyat üçün zəruri şərait yaradıldı, xarıbülbülün 30 illik həsrətinə son qoyuldu, gözü yolda qalmış Vaqifin, Xan qızı Natəvanın, dahi Üzeyirin, Bülbülün ruhları şadlandı. Beləcə, ən sönük qəlbləri belə, riqqətə gətirən “Bayatı-Şiraz” Cıdır düzünü yenidən cana gətirdi.

Prezident cənab İlham Əliyevin 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Azərbaycan xalqına təbrikində 2022-ci ili “Şuşa ili” elan etməsi hər bir azərbaycanlıda böyük ruh yüksəkliyi yaratmışdır. Ölkə başçısı Qarabağın yenidən bərpasını, Şuşanın dirçəldilməsini önümüzdəki dövrdə dövlətimizin qarşıya qoyduğu ən ümdə vəzifələrdən biri kimi müəyyən etmişdir. Xalqımız əmindir ki, ölkə Prezidentinin rəhbərliyi altında bütün regionda gündəmi diktə edən Azərbaycan Respublikası bu vəzifələri də uğurla icra edəcək, böyük qayıdışa başlamaqla, mədəniyyət paytaxtımızın dünyada daha geniş tanıdılmasına nail olacaq. Çünki bu torpaqlara hələ düşmən ayağı dəyməyəndə də Qarabağ, Şuşa adı bizim yaddaşımızın kökündə, ən gözəl kəlmələrində yaşadılıb. Elə bu sevginin ətrini bu günümüzə qədər qoruyub saxlayan Naxçıvanın 100 yaşlı mətbu orqanı olan “Şərq qapısı” qəzetinin onillər əvvəlki yazılarının başlıqları kimi.

“Şuşa ili”ndə qəzetimizin bu mövzuda ilk yazısı olaraq onun qızıl arxivindəki bu qiymətli seçmələri imzaları ilə birlikdə olduğu kimi oxucularımıza təqdim edirik.




* * *

Təbiət öz səxavətini bizim Şuşadan əsirgəməmişdir. Sağlam dağ havası, sıx yaşıllıqlar sanki nəhəng oksigen fabrikidir. Yaxınlıqda mineral su çeşmələri. Yaxşı istirahət etmək üçün bundan artıq nə lazımdır. Biz Şuşanın kurort sərvətlərindən mümkün qədər geniş istifadə etməyə çalışırıq. Şəhər böyüyür, öz hüdudlarını genişləndirir…

*“Dağ kurortu hüdudlarını genişləndirir”*
*Valeh Kazımov*
*15 fevral 1970-ci il*

* * *

Uca dağlar qoynunda məskən salmış Şuşanın bu günü könül oxşayandır. Onun gözəl təbiəti, hüsnünə sığmayan mənzərəsi vardır. Bu şəhərin görkəmi mərmər pillələri xatırladır. Bir-birinin ardınca muncuq kimi düzülmüş yaşayış evləri, ictimai binalar biri digərinin qarşısını kəsməsin, onu ört-basdır etməsin deyə səki kimi pillə-pillə ucaldılmışdır. Bu da onun görkəmini daha füsunkar etmişdir…

*“Şuşa gözəldir”*
*Cəlal Rəfiyev*
*11 mart 1970-ci il*

* * *

Dərələr və dağlar üzərində salınmış Şuşanı qartal yuvası adlandırmışlar. Şairlər onun gözəlliyinə şeirlər qoşmuş, təbiblər gözəl ab-havasından riqqətə gəlmişlər. Bir zamanlar Şuşa qala kimi tikilmişdir. Qalanın indiyədək qalan divarlarının hündürlüyü 8 metrə çatır. Şəhərdə bu gün belə XVIII əsrdə tikilmiş qalaları görmək olar.

Şuşa lap qədimdən şairləri, bəstəkarları, xanəndələri, yazıçıları ilə məşhurdur. Bu şəhər Vaqifin, Ü.Hacıbəyovun, Bülbülün Vətənidir. Böyük rus şairi Sergey Yesenin öz məktublarının birində yazmışdır ki, Qafqazda deyirlər: “Əgər sən xanəndəlik etmirsənsə, deməli, Şuşadan deyilsən…”

*“Şuşa kurort şəhəridir”*
*Alqayıt Kərimov*
*18 sentyabr 1973-cü il*

* * *

El arasında Şuşanı Azərbaycanın xalq musiqi konservatoriyası adlandırırlar. Həqiqətən də, belədir. Şuşa istedadlı musiqi xadimləri yetişdirmiş, özünün zəngin sənət irsi ilə şöhrətlənmişdir. Şuşada musiqi ilə bağlı olmayan ailə tapmaq belə, çətindir…

*“Musiqi diyarı”*
*F. Əliyeva, Şuşadakı Şərq musiqi alətləri fabrikinin ustası*
*23 aprel 1975-ci il*

* * *

Başı buludlarda gizlənən qarlı-qartallı dağların zirvəsini görmək istəsəniz Şuşaya gəlin. Dərin dərələrin, sıx meşələrin, təkrarolunmaz gözəlliyinə, dolama yollara baxmaq istəsəniz Şuşaya gəlin. Sıldırımlardan tökülən gur çayların, nəğməli şəlalələrin səsinə qulaq asmaq istəsəniz Şuşaya gəlin. Diş göynədən İsa bulağından bircə qurtum içmək, dünyada yeganə olan xarıbülbül çiçəyinin ətrini duymaq, cüyür gözlərinin gözəlliyinə baxmaq istəsəniz Şuşaya gəlin. Saymaqla qurtaran deyil bu yerlərin füsunkarlığı…

*“Sağlamlıq şəhəri”*
*Q.Ağayev*
*3 aprel 1975-ci il*

* * *

**Şuşanın baharı**

*Qızıl işığını, qızıl nurunu*
*Bulud ələklərdən ələyir günəş.*
*Səhər yağışında yuyunan dağı*
*Körpə tək şəfəqə bələyir günəş*

*Zirvədən açılan kələğay-duman*
*Dərin dərələrdə baş alıb gedir.*
*Olur şəfəqlərlə üfüqlər əlvan,*
*Çaylar qıjıltıyla səs salıb gedir.*

*Güneylər bürünür yaşıl alova,*
*Quzeylər ağarır dənər qar kimi.*
*Ağaclar üstündə çoxalır yuva,*
*Quşlar vəcdə gəlir bəstəkar kimi*

*Sərin külək əsir Cıdır düzündən,*
*Titrəşir çiçəklər bir ehtizazla.*
*Qıvrılır səmada şimşəklər hərdən,*
*Göylər qaqqıldayır coşqun avazla.*

*Bahar paltarını geyinib Şuşa,*
*Olur şirin nəğmə, qanadlı şeir.*
*Bu gözəl bahara söz qoşa-qoşa*
*Sənətkar olmuşdur Bülbül, Üzeyir.*

*Elman Elsəvər*
*23 aprel 1975-ci il*

* * *

Məşhur Avropa səyyahlarından biri demişdir: Şuşanın baharı əsrarəngiz rənglərin, sehrli səslərin, ürəkləri sənət alovuna salan qanadlı duyğuların birliyindən yaranır. Bu baharda qeyri-adi bir yaraşıq, ülviyyət və gözəllik büsatı vardır. Əfsunlu qıfılbəndlərdən keçib ürəklərə süzülən əvəzsiz musiqi çalarları, şirin zəngulələr, laylalar qədər incə və məlahətli muğamat guşələri bu torpağın nəfəsidir…

*“Şuşanın gəncliyi”*
*H.Razi*
*27 aprel 1977-ci il*

* * *

Yolumuza göylər su çiləyir, narın yağış altında Şuşa dolaylarını qalxırıq. Gözlərimiz önündə Qarabağın gözəllik sərgisi açılır. Bahar öz fırçası ilə qarlı-qartallı dağlar, keçilməz dərələr boyunca təkrarolunmaz yaraşıq büsatı yaratmışdır. Dolaylar əzəmətli bir qalanın bürclərinə sarınan pillələr kimi görünür. Bu pillələri qalxdıqca gözlərimiz önündə elə bil tarix səhifələnir. Əsrlərin arxasına boylanırıq, üfüqlə birləşmiş kimi görünən qranit hasarlarda sanki bütün Qarabağın vüqarı cəm olunmuşdur...

*“Şuşanın cavanlıq büsatı”*
*H.Razi*
*1 may 1982-ci il*

* * *

Salon titrəyirdi. Hamı bir nəfər kimi ayağa qalxaraq balaca sənətkarları alqışlayırdı. Rus, moldovan, ukraynalı, latış və başqa millətlərin nümayəndələri onları başa düşməsələr də, Qırxqız dağlarının bulaqları kimi həzin şırıltıyla axıb gedən böyük Qarabağ musiqisinin təsirindən yaxa qurtara bilmirdilər.

İlahi, bu qızılgüllər kimi pak olan körpələrin ürəyindən qopub gələn səs idimi, yoxsa möcüzə?..

*“Dünya şöhrətli Qarabağ bülbülləri”*
*“Şərq qapısı”*
*6 avqust 1988-ci il*

**Əli CABBAROV**

---

## Bu muzey kompleksi muxtar respublikada turizm cəlbediciliyi yüksək olan mədəniyyət müəssisələrindəndir

***Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Təkcə tarixi turizmə marağı olanlar deyil, istənilən hər kəs bura gələrkən şəhəri gəzib-dolaşmaqdan zövq alır. Xüsusilə qədim tarixə malik tikililərlə yanaşı, müasir memarlıq xüsusiyyətlərini özündə əks etdirən milli arxitektura elementləri də bütöv bir şəhər ansamblı fonunda hər kəsi özünə cəlb edir. Bu dediklərimizə bir də şəhərin sakit ab-havasını və çox təmiz küçə və meydanlarını əlavə etsək, mübaliğəsiz olaraq gözəl bir şəhər eksteryerinə sahib olduğumuzu fəxrlə söyləyə bilərik. Bəlkə, elə buna görədir ki, Naxçıvan şəhərinə yolu düşən yerli və əcnəbi turistlərin ən çox diqqətini cəlb edən şəhərin gözəl arxitekturası və hədsiz təmizliyidir.***



Müasir urbanizasiya proseslərinin ən gözəl nümunəsini yaratmış bu qədim və müasir şəhər həm də çoxsaylı mədəniyyət müəssisələri, əsasən də, muzeylərlə zəngindir. Bu, bir tərəfdən xalqımızın qədim tarixə, zəngin mədəniyyətə malik olması ilə bağlıdırsa, digər tərəfdən bu tarixi, mədəniyyəti yaratmış böyük şəxsiyyətlərə məxsusluğu ilə əlaqədardır. Təbii ki, muzeylər həm də istənilən şəhər, bölgə haqqında ilkin və ən dolğun mənbələr rolunu oynayır. Elə Qoca Şərqin qapısı sayılan Naxçıvanın paytaxt şəhəri də, yuxarıda qeyd etdiyimiz kimi, müxtəlif profilli muzeyləri ilə tanınır. Belə muzeylərdən biri də şəhərin qərb hissəsində – Əcəmi seyrəngahında yerləşən “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksidir. Bu muzey kompleksi haqqında qəzetimizdə indiyədək xeyli sayda məlumatlar gedib. Ancaq bu mədəniyyət müəssisəsinə növbəti dəfə müraciət etməyimizin səbəbi həm də muzey kompleksinin muxtar respublikada özünə ən çox turist cəlb edən mədəniyyət müəssisələrindən biri olmasıdır.

Kompleksdə Naxçıvan xanlarının sarayı, Şərq memarlığının mühüm incilərindən sayılan Möminə xatın türbəsi və daş fiqurların nümayiş etdirildiyi Açıq Səma Altında Muzey yerləşir. Naxçıvan xanlarının iqamətgahında “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə yaradılmışdır. Ali Məclis Sədrinin 2015-ci il 4 fevral tarixli Sərəncamı ilə “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi adlandırılmışdır.





Muzey kompleksinin direktoru Nəzakət Əsədova bildirdi ki, buradakı muzeyin ekspozisiyası 9 zaldan ibarətdir. Yarandığı dövrdə 150 eksponatla fəaliyyətə başlasa da, hazırda eksponatların sayı 2 min 700-dən çoxdur. Həmin eksponatların 350-si ekspozisiya zallarında, 60-a yaxını Möminə Xatın və 240-dan çoxu Açıq Səma Altında Muzey Kompleksində nümayiş və təbliğ edilir, digər hissəsi isə fond otaqlarında qorunub mühafizə olunur.

Öyrəndik ki, ötən ilin 11 ayı ərzində muzey kompleksini 288 min 934 nəfər ziyarət edib. Onlardan 54 min 163-ü əcnəbi vətəndaş olub. Müsahibimiz bildirir ki, bir sıra tədbirlərə ev sahibliyi etmiş, tarix və mədəniyyətimizin təbliğ olunduğu bu memarlıq kompleksini Naxçıvana ölkəmizin digər bölgələrindən üz tutan qonaqlar, eləcə də xarici ölkələrdən gələn turistlər də həvəslə ziyarət edirlər.

Bəs “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini turistlər üçün cəlbedici edən nədir? Qeyd etdiyimiz kimi, bu muzey kompleksi Əcəmi seyrəngahında yerləşir. Seyrəngahın ümumi ərazisi 4 hektara yaxındır. Ərazinin böyüklüyü, burada istirahət üçün lazımi şəraitin yaradılması istər-istəməz hər kəsin diqqətini cəlb edir. Möminə xatın türbəsinin möhtəşəmliyi, onu yaxından görmək istəyi bura yolu düşən hər kəsə maraqlıdır. Yaxınlıqdakı açıq səma altında müxtəlif tarixi daş fiqurların nümayiş olunması da ərazidəki maraqlı obyektlərdən sayılır. Xan sarayı isə istər memarlıq quruluşu, istərsə də interyer dizaynı baxımından çox maraqlı və cəlbedici məkanlardan biridir. Dolayısı ilə, hətta Naxçıvanda heç vaxt olmayan əcnəbi qonaq(lar) kənardan Möminə xatın türbəsini görüb ona yaxınlaşmaq istəyirsə, bir az aralıda səliqə ilə düzülmüş daş fiqurlara və ya Naxçıvan xanlarının sarayına da baxmadan keçə bilmir. Digər tərəfdən ərazinin yaşıllıqlarla əhatə olunması, burada istirahət üçün oturacaqların qoyulması və sair kimi amillər də kompleksin cəlbediciliyini artırır. Təsadüfi deyil ki, muxtar respublikaya gələn turistlərin, demək olar ki, hamısı bu kompleksin ərazisini ziyarət edirlər. Bundan əlavə, kompleksə muxtar respublikada fəaliyyət göstərən dövlət qurumlarının, təhsil müəssisələrinin kollektivləri, eləcə də şəhər sakinləri tez-tez üz tuturlar. Ölkəmizin digər bölgələrindən müxtəlif turizm şirkətləri tərəfindən göndərilən qrupların səyahət planında da bu mədəniyyət müəssisəsinin adı hər zaman ön yerdə olur. Bir sözlə, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi mədəni istirahət baxımından hər kəs üçün ideal məkanlardan sayılır.

Muzey kompleksinin yerləşdiyi ərazi həm də öz mistik aurası ilə seçilir. Naxçıvanın (Azərbaycanın) dövlətçilik tarixinin izlərini yaşadan abidələr sanki əvvəldən düşünülərək bu ərazidə yerləşdirilib: Atabəylərin yadigarı Möminə xatın türbəsi, Naxçıvan xanlarının iqamətgahı Xan sarayı, müstəqil Azərbaycan dövlətinin banisi – ümummilli lider Heydər Əliyevin yaxınlıqdakı abidəsi, ümumilikdə, Əcəmi seyrəngahını hər birimiz üçün dəyərli edir. Tarix isə yaşamaq haqqını ona verilən dəyərlərdən alır.

**Səbuhi HƏSƏNOV**

***Azərbaycan xalqının qədim, zəngin və unikal mədəniyyəti vardır. Milli mədəniyyətimiz xalqımızın tükənməz sərvətidir. Şübhəsiz ki, dünya ölkələri və xalqları arasında respublikamızın layiqli yer tutmasında, beynəlxalq əlaqələrin daha da genişlənməsində, mehriban dostluq münasibətlərinin və qarşılıqlı fayda verən əməkdaşlığın formalaşmasında milli mədəniyyətimiz müstəsna əhəmiyyət kəsb edir. Qloballaşma və mədəni inteqrasiya prosesinin geniş vüsət aldığı indiki dövrdə milli mədəniyyətlərin qorunması, inkişaf etdirilməsi olduqca önəmli məsələdir.***

# Qloballaşma milli mədəniyyətimizin qorunmasına və inkişafına mənfi təsir etməməlidir

Mürəkkəb və heç də birmənalı qiymətləndirilməyən bu prosesin perspektivləri bəşəriyyəti düşündürməyə bilməz. Həmin prosesdə beynəlxalq hüquq prinsipləri və normaların aliliyi, dəyişikliklərin spesifik xarakterli, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqətlə yanaşmaq kimi problemlər xüsusi diqqətə layiqdir. Hər bir ölkənin səciyyəvi milli-tarixi cəhətlərinin də nəzərə alınması burada çox önəmlidir. Bunu mədəniyyətlərin müxtəlifliyi də tələb edir. Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyev qloballaşma ilə bağlı öz çıxışında demişdir: ***"Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb və heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etməlidir".***

İqtisadi sahədə qloballaşma modernləşdirilmiş yeni kapitalizmin dünya miqyasında bərqərar olmasını nəzərdə tutur. Yeni bazarların yaradılması yeni məhsullar üçün ucuz xammal ehtiyatlarından və işçi qüvvəsindən istifadə yolu ilə külli miqdarda gəlir əldə edilməsindən ibarətdir. Mədəniyyət sahəsində də qloballaşma bu mənafelərə xidmət etdiyi təqdirdə bəşəriyyət böyük fəlakətlərlə üzləşə bilər. İnteqrasiya prosesinin qaçılmaz olduğu bir dövrdə milli-mənəvi və əxlaqi-tərbiyəvi dəyərlərimizin qorunmasına daha böyük sevgi ilə yanaşmalıyıq. Bu zərurət cəmiyyət həyatının bütün sahələrini əhatə edən qloballaşmanın ziddiyyətli gedişatından doğur. Ona görə də biz milli-mənəvi dəyərləri aşınmalardan qorumalıyıq. Milli mədəniyyətimizi isə millətin qloballaşmanın mənfi təsirindən özünümüdafiə vasitəsinə çevirməliyik. Mədəniyyət sahəsində özünütəşkiletmə və özünütənzimləmə metodları tətbiq edilməli, prioritetlər aydınlaşdırılmalı və maliyyələşdirilməlidir. Yalnız birgə, səmərəli fəaliyyət nəticəsində özünəməxsusluğu, milli mədəni dəyərləri qorumaq və mühafizə etmək mümkündür. Hazırda təcrübə göstərir ki, mədəniyyətə tətbiq olunan qloballaşma nəticəsində milli mədəniyyət xeyli dərəcədə özünəməxsusluğunu itirir və mədəniyyət müxtəlifliyi aradan qalxır. Biz mədəniyyətin inkişafına ənənəvi, milli-mənəvi irsin ən mütərəqqi cəhətlərinin mənimsənilməsi yolu ilə getməliyik. Bəşəri dəyərlərə, insanlığa xidmət etməyən inteqrasiyada, əslində, nə bədii-estetik, nə tərbiyəvi, nə də, ümumiyyətlə, mənəvi dəyərlərə yer qalır. Bu mənada, Azərbaycan reallığında mədəni irsin mühafizəsi, dünyanın mütərəqqi, mənəvi dəyərlərindən istifadə edərək gənc nəslin daha sağlam əhvali-ruhiyyədə, saf əxlaqi ruhda tərbiyələndirilməsi mədəniyyətimizin ən zəruri vəzifələrindən biridir. Azərbaycan qloballaşmanın müsbət yöndə inkişafına öz töhfəsini verməyə qadirdir. Ölkəmiz dünya miqyasında geosiyasi əhəmiyyətə malik öz coğrafi mövqeyindən, zəngin potensialından istifadə edərək Şərq ilə Qərb arasında tarixi keçmişdən başlamış və gələcəyə istiqamətlənmiş körpü rolunu səmərəli surətdə həyata keçirə bilər. Hər bir xalqın, millətin mənşəyi haqqında fikir söyləyərkən, ilk növbədə, onun hansı mənəvi köklər əsasında formalaşdığını nəzərdən keçirmək lazım gəlir. Azərbaycan xalqı bu baxımdan öz böyüklüyü, mənəvi kamilliyi ilə qürurlana, mənəviyyat qaynaqları ilə fəxr edə bilər. Doğrudur, 70 illik sovet sistemi, sosializm ideologiyası bu sistemə daxil olan xalqları, millətləri, hətta etnik qrupları belə öz milli, tarixi mənəvi kökündən ayırmağa çalışmışdır. Bununla belə, xalqımız müstəqilliyini qazanan andan milli mənlik şüurunun, qan yaddaşının bərpasına, mənəvi qaynaqların araşdırılmasına və dirçəlməsinə doğru güclü bir yürüş başlamışdır. Sovet imperiyasının 70 il "beynəlmiləl mədəniyyət", "sosialist mədəniyyəti" adları altında təbliğ etdiyi mədəniyyət vətəndaş millətçiliyi konsepsiyasından bəhrələnmişdir. Ermənilər isə məhz bütün tarixi fəaliyyətləri zamanı etnik millətçilik konsepsiyasına əsaslanaraq nəinki Ermənistanda, hətta başqa xalqlara məxsus olan torpaqlarda da etnik millətçiliyə əsaslanan mədəniyyət mövqeyindən çıxış etmişlər. İndinin özündə də ermənilər milli mentalitetlərinə uyğun olaraq etnomillətçilik xüsusiyyətlərini qoruyub saxlayır, yaşadıqları ərazilərdə etnik təmizləmə siyasəti aparır və monoetno mədəniyyətin inkişafına çalışırlar. Ermənistanda əsrlərboyu yaşayıb-yaradan azərbaycanlıların deportasiyası, onlara məxsus olan tarix və mədəniyyət abidələrinin dağıdılması erməni etnomillətçiliyinin mövcudluğunu təsdiq edən faktorlardan biridir, etnomillətçilik bu xalqın mədəni həyatında patoloji bir həddə çatmış, xüsusilə Türk dünyasına qarşı erməni düşmənçiliyi formalaşdırmışdır. Erməni mentalitetində etnik millətçi meyillər şovinist maraqları artırmış, başqa millətlərin mədəniyyətini özününküləşdirmək ənənəsi yaratmışdır. Xüsusilə Azərbaycana məxsus bir çox tarix və mədəniyyət abidələrinin, musiqi və bədii toxuculuq nümunələrinin mənimsənilməsi erməni etnik milli mədəniyyətinin daxili naqisliyindən irəli gəlir. Biz unutmamalıyıq ki, ermənilərin işğalı nəticəsində, milli mədəniyyətimizin beşiyi olan Qarabağda və digər zəbt edilmiş ərazilərimizdə xalqımızın keçmişini və bu gününü əks etdirən abidələrimiz planlı surətdə məhv edildi, daşınıb aparıldı, yaxud da onlar təcili şəkildə "erməniləşdirildi". Mədəni sərvətlərə hörmətsizlik erməni daşnaklarının düşünülmüş strategiyasının – etnik təmizləmə siyasətinin məhsuludur. Beləliklə, Kreml tərəfindən dəstəklənən erməni-daşnak təcavüzləri nəticəsində biz həm ən gözəl, ən münbit torpaqlarımızı, həm də Azərbaycan və azərbaycanlılar üçün mühüm əhəmiyyət kəsb edən, milli ruhu özündə əks etdirən minlərlə abidəmizi itirmişik. Məsələn, qədim Quruçay mədəniyyətinə aid Azıx mağarası, XII əsrdə yaranan və xristian alban mədəniyyətinin parlaq nümunəsi sayılan Xəzinədağ məbədi, Kəlbəcərdə Zəli və Zalxa göllərinin yaxınlığındakı yüzlərlə qədim qayaüstü rəsm və yazılar bu qəbildəndir.

İşğalçı Ermənistan zəbt etdiyi ərazilərdə 30 il ərzində maddi mədəniyyət abidələrimizi vəhşicəsinə dağıdaraq yerləyeksan etmişdir. Düşmənin niyyəti Azərbaycan xalqının Qarabağın əsl, həqiqi sahibi olduğunu sübut edən çox sayda qiymətli tarixi abidələri, məscid və ziyarət yerlərini yox etmək olmuşdur. Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tarixi torpaqlarımızı düşməndən azad etdikdən sonra erməni vandallarının bədxah əməlləri bütün çılpaqlığı ilə üzə çıxmışdır.

"Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nümayəndələri tərəfindən tarix və mədəniyyət obyektlərinin (abidələrinin və müəssisələrinin) ilkin inventarlaşdırılması və mühafizəsi məqsədilə abidələrin və mədəniyyət müəssisələrinin monitorinqlərinə başlanılmışdır. İndiyədək aparılmış monitorinqlər zamanı dövlət qeydiyyatında olan 312 tarix-mədəniyyət abidəsinin monitorinqi həyata keçirilmişdir. Bundan əlavə, həmin ərazilərdə yerləşən dövlət qeydiyyatında olmayan tarixi, memarlıq, arxeoloji əlamət daşıyan 106 obyekt (yeni aşkar olunmuş abidə) aşkar edilmişdir. Həmçinin aparılan monitorinqlər zamanı 571 mədəniyyət müəssisəsi aşkar edilmişdir ki, onlardan 286-sı kitabxana, 237-si mədəniyyət evi və klub müəssisəsi, 19-u muzey, 24-ü uşaq musiqi məktəbi, 1-i kinoteatr, 2-si teatr, 2-si qalereyadır. Müəssisələrin hamısı, demək olar ki, tamamilə dağıdılmış vəziyyətdədir. Heç şübhəsiz ki, ərazi bütövlüyünü təmin etməyə qadir olan güclü və müstəqil Azərbaycan dövləti azad edilmiş rayonlarda başladığı genişmiqyaslı quruculuq işləri nəticəsində həmin ərazilərdə müvafiq mədəniyyət infrastrukturu yaradılacaq və bütün tarixi-mədəni abidələri bərpa olunacaq.

*Belə bir nəticəyə gəlmək olar ki, hər bir xalqın mədəniyyəti məhz həmin xalqın milli xüsusiyyətləri zəminində və kontekstində inkişaf edir. Müasir Azərbaycan mədəniyyəti, öz milli-tarixi irsinə əsaslanaraq, bəşəri mədəniyyətin yüksək nümunələrindən qidalanır və nəticə etibarilə, həm milli, həm də beynəlmiləl xarakter alır. Digər tərəfdən ictimai həyatın demokratikləşməsi milli mədəniyyətin inkişafına müsbət təsir göstərir.*

**Hidayət ƏKBƏROV**
***Naxçıvan Dövlət Universitetinin fransız dili müəllimi***

Estafet

# "Müfəttiş"lə görüş hər birimizdə xoş təəssürat yaratdı

***İki ilə yaxındır ki, dünyanı cənginə alan koronavirus adlı bəla səbəbindən bütün dünyada olduğu kimi, ölkəmizdə də bəzi məhdudiyyətlər tətbiq olunur. Bu səbəbdən artıq uzun bir zaman idi ki, teatr salonları tamaşaçı alqışına, tamaşaçı sevgisinə həsrət qalmışdı. Ötən ilin sentyabr ayında karantin qaydalarının yumşaldılması ilə bağlı verilən qərara əsasən artıq teatrlar öz fəaliyyətini müəyyən şərtlərlə davam etdirir. Bu qərar təkcə teatr əməkdaşlarını, aktyor və aktrisalarımızı deyil, həm də teatrsevərləri çox məmnun edib. Verilən qərardan sonra teatrlarda qızğın məşqlərə start verildi. Həsrətlə teatrın açılacağı günü gözləməyə başladıq.***

Nəhayət, təhsil aldığımız universitetdə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının pandemiyadan sonra öz tamaşaçılarını yeni tamaşa ilə qarşılayacağı ilə bağlı xəbər eşitdik. Bu bizi çox sevindirdi. 17 aydan sonra 138 yaşlı teatr öz tamaşaçılarını görkəmli rus dramaturqu Nikolay Vasilyeviç Qoqolun dünyaca məşhur "Müfəttiş" komediyası ilə salamlayırdı. Əsərin adını eşidən kimi bütün tələbələrin üzünə sevinc qondu.



Tamaşanı izləmək üçün Naxçıvan teatrına getdik. Teatr binasının qarşısında bizi ilk olaraq böyük ədib Mirzə Cəlilin abidəsi qarşılayır. Bu əzəmətli abidə də sanki teatra tələsən insanların fonunda daha canlı görünürdü. İçəriyə daxil olub əyləşirik. Dəfələrlə burada olsam da,



sanki yenə də özümü fərqli bir aləmə düşmüş kimi hiss edirəm. Buranın ecazkar və bir o qədər də sirli aurası var. Çünki teatr insanı insana insanca öyrədən müqəddəs bir sənət məkanıdır. Onun müqəddəsliyi həm də ondadır ki, burada insan keçmişinə və gələcəyinə eyni anda baxa bilir, baxdıqca da özünü tapır. Bura ayaq basdığın andan həqiqətin sehri ilə ovsunlanaraq dərin düşüncələrə dalırsan. Ətrafıma göz gəzdirirəm, hamı səbirsizliklə tamaşanın başlanmasını gözləyir. Budur, o möhtəşəm an gəlib çatır...

Müdriklər deyiblər: "İncəsənətin əsas gücü sadəliyi, möhtəşəmliyi, duyğusallığı və təmkinliyindədir". Mən bu sadalananların hamısını Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyorlarının simasında müşahidə etdim. Təsirli ifaları ilə tamaşaçıların qəlbini ovsunlayan bu aktyorların hər biri bir sənət fədaisi təsiri bağışlayırdı. Bizə jurnalistikadan yaxşı tanış olan, eyni zamanda Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyevin də bu tamaşada rol aldığını gördükdə tamaşaçı kimi iştirak etdiyimiz tələbə yoldaşlarımızla maraq qarışıq sevincimizin həddi-hüdudu olmadı. Çünki Səməd müəllim bizə jurnalistikadan dərs deyir. Biz hər zaman auditoriyada Səməd müəllimin jurnalistika ilə bağlı maraqlı mühazirələrini dinləmiş, ondan çox şey öyrənmişik. Bu gün isə onu bir aktyor kimi izləyirdik. İfa etdiyi roldan sonra isə anladıq ki, o, yaxşı pedaqoq, peşəkar jurnalist olmaqla yanaşı, həm də çox gözəl aktyordur. Rejissoru Xalq artisti Kamran Quliyev olan tamaşada çox peşəkar aktyor ansamblının iştirak etməsini də xüsusi vurğulamaq istəyirəm. Xalq artistləri Rza Xudiyev və Rövşən Hüseynovun, Əməkdar artistlər Əli Əliyev, Əbülfəz İmanov, Behruz Haxverdiyev, aktrisalar Zəminə Məmmədova, Şölə Alışovanın və digərlərinin ifaları yaddaqalan, təbii idi. Tamaşada sanki yaşlı və təcrübəli aktyorlar gəncləri öz ardınca aparır, onların da oyunlarını peşəkarlıqla ifa etməsinə şərait yaradırdılar. Nəticədə isə situasiyalar çox inandırıcı, gerçək alınırdı. Bu isə 138 illik Naxçıvan teatrının bu günə qədər qoruyub saxladığı sənət ənənəsi idi.

Bir qədər də əsər haqqında... Tamaşanın yazılmasının maraqlı bir tarixçəsi var. Komediya müəllif tərəfindən böyük rus şairi Aleksandr Sergeyeviç Puşkinin təsiri ilə qələmə alınmışdır. Belə ki, Puşkin o dövrdə bir çox şəxsin özünü yalandan müfəttiş kimi qələmə verib saxtakarlıq və özbaşınalıqlar etməsi haqqında Qoqola söhbət açır. Qoqol da bu mövzudan ilhamlanaraq "Müfəttiş"i yazmağa başlayır. Əsərdə şəhər sakinləri, daha doğrusu, şəhər rəhbərliyi Peterburqdan müfəttiş gələcəyi barədə xəbər alır. Amma heç kim onu tanımır. Mehmanxanaların birində borcu olduğu üçün hər gün pulsuz yemək yeyən və yaşayan İvan Xlestakov adlı birisini gələn müfəttiş zənn edirlər. Öz əliəyrilik və rüşvətxorluqlarını gizlətmək üçün bu gəncə riyakarlıqla yaltaqlanırlar. Ona işlədikləri sahələri yoxlamamaq üçün müxtəlif vasitələrlə pul təklif edirlər. Bir qədər fırıldaqçı olan Xlestakov bu məqamlardan ustalıqla istifadə edir və çoxlu pulla aradan çıxır. Tamaşanı təsirli edən, birinci növbədə, onun mövzusu olsa da, aktyorların mükəmməl ifası da burada öz sözünü deyirdi. Çünki mənəvi eybəcərliyin dəqiq təsviri, ifası bu eybəcərliyə qarşı olan bütün hücumlardan daha möhtəşəm və təsirlidir.

Tamaşa bitəndə zalda əyləşən hər kəs aktyorları ayaqda alqışladı. Hər şey o qədər möhtəşəm idi ki, zamanın necə keçdiyini hiss etməmişdik. Teatrdan xoş təəssüratlarla ayrıldıq. Muxtar respublikamızın aparıcı mətbuat orqanı olan "Şərq qapısı" qəzetinin növbəti nömrəsindən öyrəndik ki, tamaşaya baxan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tamaşadan sonra yaradıcı heyətlə görüşərkən həm əsəri, həm də onun yeni səhnə quruluşunu yüksək qiymətləndirmiş, uğurlu tamaşa münasibətilə kollektivə təşəkkür edərək demişdir: ***"Rejissor işi, aktyor seçimi və musiqi tərtibatı səhnə əsərinin uğurla təqdim olunmasına imkan verdi. Bu əsərin prototipi Cəlil Məmmədquluzadənin "Ölülər" və İsi Məlikzadənin "Qatarda" əsərlərində də vardır. Qoqolun "Müfəttiş" əsəri və əsərdəki obrazlar da "Ölülər" əsərindəki kimi ölməz və bütün dövrlər üçün aktualdırlar. Əsər yazıldığı dövrdə qadağan olunmuş, ancaq sonradan Peterburqda tamaşaya qoyulmuşdur. Tamaşadan sonra Qoqola verilən "Əsərdə nə üçün heç bir müsbət obraz yoxdur?" sualına o, aydın və konkret cavab vermişdir: "Vardır! Bu, namuslu və alicənab şəxs gülüşdür!" "Teatr həyatı öyrədən məktəbdir"***, – deyən Ali Məclis Sədrinin bütün dünyada yayılmış pandemiyanın bir sıra çətinliklər yaratmasına baxmayaraq, teatrın, tamaşanın hər zaman aktual olması haqqında fikirləri, yeni tamaşalar hazırlanması və nümayiş olunması ilə bağlı tövsiyə və tapşırıqları muxtar respublikamızda mədəniyyətin, incəsənətin inkişafına böyük qayğı olmaqla, həm də biz gənclərin mənəvi tərbiyəsinə, Azərbaycan və dünya klassiklərinin əsərləri ilə yaxından tanış olmasına göstərilən diqqətdir. Doğma teatrımızın növbəti uğurlu tamaşalarını səbirsizliklə gözləyirik.

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin***
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və
Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 17